

# Hacıqabul abidələr diyarıdır

*Hacıqabul Azərbaycanın strateji yollar üzərində yerləşən qədim yurd yerlərindən biridir. Bu ərazidə saysız-hesabsız maddi-mədəniyyət nümunələrinin olması da dediklərimizə sübutdur. Hacıqabul rayonunda dövlət qeydiyyatına alınmış 14 abidə vardır. Bunların içərisində ən məşhuru XI-XIII əsrlərin yadigarı olan ölkə əhəmiyyətli Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq kompleksidir. Bir zamanlar bu nadir sənət incisi baxımsızlıq ucbatından bərbad vəziyyətə düşmüşdü.*

2004-cü ildə Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun yaradılması hər şeyi dəyişdi, əsaslı bərpa işləri başladı. Son dövrdə bərpa işləri sürətlənmiş, keyfiyyət yüksəlmişdir. Xüsusilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayevin və nazirin birinci müavini Ədalət Vəliyevin qoruqda olmaları, öz tövsiyələrini vermələri işlərin vüsətini daha da artırmışdır.

Qoruğa xarici qonaqların axını güclənmişdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəni İrs şöbəsi tərəfindən Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğuna Hacıqabul abidələrinin elmi-tədqiqat işlərinin tapşırılması maddi-mədəniyyət nümunələrinin öyrənilməsinə, qorunmasına diqqəti artırmışdır.

Belə ki, rayon ərazisində dövlət qeydiyyatında olan 14 abidənin real vəziyyəti öyrənilmiş, yeniləri uçota alınmağa başlamışdır.

Rayon polis şöbəsinin sahə müvəkkilləri ilə bərabər abidələr yerləşən ərazilərdə müntəzəm reydlər keçirilir, onların dağılmasının qarşısı alınır.

Rayonun məktəblərində, idarə müəssisələrində müntəzəm görüşlər keçirilir, izahat işləri aparılır.

Məktəblilər arasında «Hacıqabul abidələr diyarıdır» mövzusunda disputlar, rəsm müsabiqələri keçirilmişdir. Qoruq əməkdaşları «Pir Hüseyn Şirbanı», «Hacıqabulda turizmin inkişaf perspektivləri», «Hacıqabulun yeni tikinti arxeoloji tədqiqatları» topluları və 30-dan yuxarı mətbuatda məqalələr dərc etdirmişlər. İl ərzində Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunda 6 dəfə telekanallarda verilişlər göstərilmişdir.

18 aprel 2007-ci il tarixində qoruq işçiləri rayon ictimaiyyətinin iştirakı ilə tarix-diyarşünaslıq muzeyində maraqlı tədbir keçirmişlər.

Hacıqabul ziyalıları dəfələrlə Azərbaycan MEA-nın Prezidentinə abidələrlə zəngin olan rayon ərazisində arxeoloji ekspedisiyaların təşkili barəsində müraciət etmişlər. Yaxşı olardı ki, daimi işləyən «Hacıqabul arxeoloji ekspedisiyası» fəaliyyətə başlayaydı.

Tarixi abidələri qorumaq və təbliğ etmək hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

**Taleh XƏLİLOV,**
**Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun baş fond mühafizəçisi**